## 1. Ümumi məlumat

**Rəsmi adı:** Gürcüstan
**Ərazisi:** 69 700 km2
**Əhalisi:** 4 436,4 min nəfər (1 yanvar 2010)
**Etnik tərkibi:** gürcülər - 83,8 %, azərbaycanlılar – 6,5 %, ermənilər – 5,7 %, ruslar – 5,7 %, osetinlər – 0,9 % (2002-ci ilin rəsmi siyahıyaalınmasına görə).
**Dini tərkibi:** pravoslavlar - 83%, müsəlmanlar - 10%, erməni-qriqorianlar- 4%
**Əsas milli bayramı:** 26 may (1918)
**İnzibati ərazi bölgüsü:** 2 muxtar respublika, 9 diyar və 72 rayondan ibarətdir. Muxtar respublikalara Acarıstan və Abxaziya aiddir. Onların hər ikisi Sovet dövründə yaradılmış və müasir Gürcüstan Konstitutsiyası tərəfindən tanınırlar. Keçmiş Cənubi Osetiya isə administrativ olaraq Şida Kartli regionuna daxildir.
Diyarlar: Quriya, İmereti, Kaxeti, Kvemo Kartli, Mtsxeta-Mtianeti, Raça-Leçxumi və Kvemo Svaneti, Sameqrelo-Zemo Svaneti, Samtsxe-Cavaxeti, Şida Kartli.
**Əsas şəhərləri:** Tbilisi (paytaxt), Kutaisi, Rustavi, Batumi.
**Dövlət quruluşu:** Respublika
**Prezident** - ümumi birbaşa səsvermə yolu ilə beş il müddətinə seçilir. Hazırkı Prezident **M.Saakaşvili** (5 yanvar 2008-ci ildə ikinci müddətə seçilmişdir)
**Baş nazir –** Prezident tərəfindən təyin edilir. Baş nazir **Nikoloz Qilauri** (30 yanvar 2009-cu ildə təyin edilmişdir)
**Ali qanunverici orqan:** tək palatadan ibarət Parlamentdir (150 deputat).
Parlament ümumi birbaşa səsvermə yolu ilə 5 il müddətinə seçilir. Sonuncu seçkilər 21 may 2008-ci tarixində keçirilmişdir.
**Məhkəmə orqanları:** Ali Məhkəmə (hakimlər Prezidentin tövsiyəsi ilə Parlament tərəfindən təyin edilir), Konstitusiya Məhkəməsi (Batumi şəhərində yerləşir).

***Siyasi partiyalar***

Xristian-Demokrat Hərəkatı, Sədri – **Qeorqi Tarqamadze**,
Gürcüstan Naminə Alyans, Sədri – **İrakli Alasaniya**,
Leyboristlər partiyası, Sədri – **Şalva Natelaşvili**,
“Vahid Gürcüstan” Demokratik Hərəkatı , Sədri – **Nino Burcanadze**,
“Yeni Sağlar”, Sədri – **David Qamğrelidze**,
Gürcü partiyası, Liderləri – **Sozar Subari, Levan Qaçeçiladze, İrakli Okruaşvili**,
Gürcüstan Yolu Partiyası, Sədri – **Salome Zurabişvili**,
Sənayeçilər Partiyası, Sədri - **Qeorqi Topadze**,
Xalq Partiyası, Sədri – **Koba Davitaşvili**,
Respublikaçılar Partiyası, Sədri – **David Usupaşvili**,
Yaşıllar Partiyası, Sədri – **Qeorqi Qaçeçiladze**,
“Ümid Siyasi Hərəkatı – **İrina Sarişvili-Çanturiya**,
“Biz özümüz” partiyası – **Paata Davitaya**.

***Sonuncu seçkilərin naticələri:***

Parlament: Birləşmiş Milli Hərəkat - 120, Milli Şura-Yeni Hüquqlar - 16, Xristian Demokratik Hərəkatı - 6, İşçi Partiya - 6, Respublikaçılar - 6 yer (Parlamentin sədri: **David Bakradze**).

***Hökumətin tərkibi***

Baş Nazir – **Nikoloz Qilauri**
Avro-Atlantik İnteqrasiya üzrə Dövlət Naziri, Baş nazirin müavini – **Qeorqi Baramidze**
Regional Siyasət üzrə Dövlət Naziri, Baş nazirin birinci müavini – **Davit Tğeşelaşvili**
Kənd Təsərrüfatı Naziri – **Bakur Kvezereli**
Mədəniyyət və Abidələrin Qorunması Naziri – **Nikoloz Rurua**
İdman və gənclərlə iş üzrə nazir – **Vladimir Vardzelaşvili**
Müfadiə Naziri – **Baçana Axalaya**
İqtisadityyat və Davamlı İnkişaf Naziri – **Vera Kobaliya**
Təhsil və Elm Naziri – **Dmitri Şaşkin**
Energetika Naziri – **Aleksandr Xetaquri**
Ekologiya və Təbii Sərvətlər Naziri – **Qeorqi Xaçidze**
Maliyyə Naziri – **Kaxa Bainduraşvili**
Xarici İşlər Naziri – **Qrigol Vaşadze**
Əmək, Səhiyyə və Sosial Müdafiə Naziri – **Aleksandr Uruşadze**
Daxili İşlər Naziri – **İvane Merabişvili**
Ədliyyə Naziri – **Zurab Adeişvili**
Diaspora Məsələləri üzrə Dövlət Naziri – **Mirza Davitaia**
Qaçqınlar və Məskunlaşdırılma üzrə Dövlət Naziri – **Koba Subeliani**
Regional İnkişaf və İnfrastruktur üzrə Dövlət Naziri – **Ramaz Nikolaişvili**
Reinteqrasiya məsələləri üzrə Dövlət Naziri – **Yekaterina Tğeşelaşvili**
Cəzaların icrası, probasiya və hüquqi yardım Naziri **– Xatuna Kalmaxelidze**

## 2. İqtisadiyyat

**İqtisadiyyatın mühüm sahələri:** metallurgiya, aviasiya sənayesi, elektronika, mədən işləri.
**ÜDM:** $ 22,07 milyard (2010)
**Ümumi Daxili Məhsulun artımı:** 4,3 % (2010)
**Sektorların payına düşən Ümumi Daxili Məhsul:** Kənd təsərrüfatı – 11 %, Sənaye – 27,1 %, Xidmətlər – 62 % (2009)
**Əsas kənd təsərrüfatı məhsulları** – sitrus meyvələri, üzüm, çay, fındıq, tərəvəz, heyvan
**Əsas sənaye məhsulları** – polad, təyyarə, maşın alətləri, elektrik avadanlıqları, dağ-mədən sənayesi (manqan və mis), kimyəvi məhsullar, taxta məhsulları, şərab
**Xarici ticarət dövriyyəsi** – 6 678 mln ABŞ dolları (2010)

**İdxal**: 5 095 mln ABŞ dolları
Əsas idxal məhsulları – yanacaq, quru nəqliyyat vasitələri, maşınlar və onların hissələri, taxıl və digər ərzaq, əczaçılıq məhsulları.
Əsas idxal tərəfdaşları – Türkiyə, Ukrayna, Azərbaycan, Çin, Almaniya.
**İxrac**: 1 583 mln ABŞ dolları
Əsas ixrac məhsulları – metal, şərab, mineral su, minerallar, quru nəqliyyat vasitələri, meyvə və fındıq.
Əsas ixrac tərəfdaşları – Azərbaycan, Türkiyə, ABŞ, Ermənistan, Ukrayna.

## 3. Xarici siyasət

Gürcüstan xarici siyasətinin əsas prioritetləri müstəqil, demokratik və suveren dövlətin yaradılması, Gürcüstanın beynəlxalq müstəvidə rolunun gücləndirilməsi, xaricdə yaşayan Gürcüstan vətəndaşlarının maraqlarının təmin edilməsidir. Eyni zamanda Gürcüstan özünün milli müstəqilliyini qorumaqla bərabər regional və beynəlxalq inkişafa şərait yaratmağa çalışır.
Gürcüstan BMT, ATƏT, Avropa Şurası, QUAM, BVF, BRİB, ÜTT, YUNESKO, Qara Dəniz İqtisadi Əməkdaşlıq qurumlarının üzvüdür.

## 4. İkitərəfli münasibətlər

Azərbaycan ilə Gürcüstan arasında diplomatik əlaqələr **18 noyabr 1992-ci** ildə yaradılmışdır. **1995-ci ilin fevral** ayında Bakıda Gürcüstanın, **1996-cı ilin mart** ayında isə Tbilisidə Azərbaycanın səfirlikləri açılmışdır.
8 mart 1996-cı ildə Tbilisidə imzalanmış Azərbaycan Respublikası ilə Gürcüstan arasında Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə, eləcədə 4 mart 2004-cü il tarixli Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsi və 14 iyun 2004-cü il tarixli Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin və Gürcüstanın Prezidenti M.Saakaşvilinin Birgə Kommünikesi ikitərəfli münasibətlərin müqavilə-hüquq bazasının əsasını və Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığını təmin edən mühüm sənədlərdir.
Gürcüstan ilə Azərbaycan Respublikası arasında yüksək səviyyəli dialoq və strateji tərəfdaşlıq əlaqələri mövcuddur. Hər iki ölkə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu nümayiş etdirərək, müxtəlif sahələr üzrə əməkdaşlıq etməkdədir. Ölkələr arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində ötən dövr ərzində ciddi irəliləyişlərə nail olunmuş, yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutmuş və əlaqələrin inkişaf etdirilməsi üçün geniş müqavilə-hüquq bazası yaradılmışdır. Gürcüstan ölkəmiz tərəfindən həyata keçirilən irimiqyaslı beynəlxalq iqtisadi layihələrin fəal iştirakçısıdır və özünü etibarlı tərəfdaş kimi göstərməkdədir.
Azərbaycan və Gürcüstan beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq edirlər. 2008-ci ilin mart ayının 14-də BMT Baş Məclisində “Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətə dair” qətnamənin qəbulu ilə bağlı keçirilmiş səsvermədə Gürcüstan qətnamənin lehinə səs vermişdir. 2009-cu ilin sentyabr ayının

9-da BMT Baş Assambleyasında Gürcüstanın təşəbbüsü ilə irəli sürülmüş "Gürcüstanın Abxaziya və Gürcüstanın Cənubi Osetiyanın Tsxinvali rayonundan olan məcburi köçkün və qaçqınların vəziyyəti" adlı qətnaməyə dair səsvermə zamanı Azərbaycan Gürcüstanı dəstəkləmişdir. 7 sentyabr 2010-cu il tarixində BMT Baş Assambleyasında "Abxaziya (Gürcüstan) və Cənubi Osetiyada (Gürcüstan) məcburi köçkün və qaçqınların vəziyyəti barədə" qətnamənin qəbulu ilə bağlı səsvermə zamanı da Azərbaycan qeyd olunan sənədin lehinə səs vermişdir.
İki ölkə arasında humanitar və elmi-texniki sahədə əməkdaşlıq yüksək səviyyədə inkişaf etməkdədir. Bu istiqamətdə həyata keçirilən tədbirlər və qarşılıqlı səfərlər yeni-yeni əməkdaşlıq imkanları yaratmış, iki ölkənin mədəni və elmi ictimaiyyətinin bir-birini tanımasına və birgə layihələrin həyata keçirilməsinə kömək etmişdir. Eyni zamanda hüquq-mühafizə, ədliyyə və digər dövlət qurumları arasında əməkdaşlıq əlaqələri qurulmuş, müxtəlif sazişlər imzalanmış və qarşılıqlı səfərlər təşkil edilmişdir.

***Rəsmi əlaqələrin xronologiyası (01.01.2004-01.02.2011-ci illər)***

**4-5 mart 2004-cü ildə** Gürcüstan Prezidenti M.Saakaşvilinin Azərbaycana rəsmi səfəri olmuşdur.
**18 mart 2004-cü ildə** Bratislavada "Daha geniş Avropaya istiqamət: yeni gündəlik" mövzusunda beynəlxalq konfransda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İ.ƏIiyev və Gürcüstan Prezidenti M.Saakaşvili görüşmüşlər.
**28 aprel 2004-cü ildə** Polşada keçirilən Avropa İqtisadi Sammiti zamanı Azərbaycan Prezidenti İ.Əliyev və Gürcüstan Prezidenti M.Saakaşvili arasında görüş keçirilmişdir.
**16 oktyabr 2004-cü ildə** Azərbaycan-Gürcüstan sərhədində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimində Azərbaycan Prezidenti İ.Əliyev və Gürcüstan Prezidenti M.Saakaşvili iştirak etmişlər.
**24-25 may 2005-ci ildə** Gürcüstan Prezidenti M.Saakaşvili Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi mərasimində iştirak etmək üçün Azərbaycana səfər etmişdir.
**16-17 iyun 2005-ci ildə** Kiyevdə Ümumdünya İqtisadi Forum tərəfindəntəşkil edilmiş "Ukraynaya həsr olunmuş növbədənkənar dəyirmi masada" Azərbaycan Prezidenti İ.Əliyev Gürcüstan Prezidenti M.Saakaşvili ilə görüşmüşdür.
**12 oktyabr 2005-ci ildə** Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Gürcüstan hissəsinin Qardabanidə keçirilən təntənəli açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti İ.Əliyevin Gürcüstan Prezidenti M.Saakaşvili ilə görüşü keçirilmişdir.
**15 avqust 2005-ci ildə** Azərbaycan Prezidenti İ.Əliyev Gürcüstanın Daxili işlər naziri V.Merabişvilini qəbul etmişdir.
**29 avqust 2005-ci ildə** Azərbaycan Prezidenti İ.Əliyev Gürcüstan Kəşfiyyat Departamentinin sədri Batu Kateliyanı qəbul etmişdir.

**3 iyun 2005-ci ildə** Tbilisidə keçirilən MDB iştirakçı ölkələri Hökumət başçılarının iclasında Baş Nazir A.Rasi-zadə iştirak etmişdir.
**23 noyabr 2005-ci ildə** Azərbaycanın Xarici işlər naziri E.Məmmədyarov "qızılgül inqilabı"nın yubiley tədbirlərində iştirak etmişdir.
**29 mart 2006-cı ildə** Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Namiq Həsən oğlu Əliyev Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.
**17 aprel 2006-cı ildə** Azərbaycanın Xarici İşlər Nazirinin müavini X.Xələfov Gürcüstanda səfərdə olmuşdur.
**22 may 2006-cı ildə** Kiyevdə GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşü olmuşdur.
**6-7 iyun 2006-cı ildə** Gürcüstanda rəsmi səfərdə olan Azərbaycanın Milli Təhlükəsizlik Naziri E.Mahmudov ölkə Prezidenti M.Saakaşvili tərəfindən qəbul edilmişdir.
**20 iyun 2006-cı ildə** Tbilisidə Beynəlxalq Energetika Agentliyi (BEA) və Gürcüstan hökumətinin birgə təşkilatçılığı ilə "Avrasiyanın energetika təhlükəsizliyi: sərmayə siyasəti və bazara yol" mövsuzunda üçgünlük beynəlxalq konfransda Azərbaycanı Milli Məclis sədrinin müavini V.Ələsgərov, Dövlət Neft Şirkətinin prezidenti R.Abdullayev və vitse-prezidenti E.Nəsirov təmsil etmişlər. **21-23 iyun 2006-cı ildə** Gürcüstanın Xarici işlər nazirinin birinci müavini V.Çeçelaşvilinin başçılığı ilə nümayəndə heyəti Bakıya səfər etmişdir.
**27-28 iyun 2006-cı ildə** Azərbaycanda səfərdə olan Gürcüstan Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi – Milli təhlükəsizlik şurasının katibi K.Kemulariyanı Prezident İ.Əliyev qəbul etmişdir.
**5 iyul 2006-cı ildə** Gürcüstanın Baş naziri Z.Noqaideli Azərbaycanda səfərdə olmuşdur.
**12 iyul 2006-cı ildə** İstanbulda Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin, Gürcüstan Prezidenti M.Saakaşvilinin və Türkiyə Respublikasının Baş naziri R.T.Ərdoğanın üçtərəfli görüşü keçirilmişdir
**13 iyul 2006-cı ildə** Ceyhanda Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təntənəli açılış mərasimində Gürcüstan Prezidenti M.Saakaşvili, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev iştirak etmişlər.
**18 avqust 2006-cı** ildə Azərbaycan-Gürcüstan hökumətlərarası komissiyasının iclasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri A.Rasizadə Tbilisidə Gürcüstan Prezidenti M.Saakaşvili ilə görüşmüşdür.
**22 sentyabr 2006-cı ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Berlində Gürcüstan parlamentinin sədri N.Burcanadze ilə görüşmüşdür.
**29 oktyabr 2006-cı ildə** Azərbaycan Prezidenti İ.Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın Mədəniyyət, İdman və Abidələrin qorunması Naziri G.Qabaşvilini qəbul etmişdir.
**31 oktyabr 2006-cı ildə** Gürcüstanın xarici işlər naziri G.Bejuaşvili və onu müşayiət edən nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.

**28 noyabr 2006-cı ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev MDB dövlət başçılarının Minskdə keçirilən zirvə görüşü çərçivəsində Gürcüstan Prezidenti M.Saakaşvili ilə görüşmüşdür.
**30 noyabr 2006-cı ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Azərbaycanda işguzar səfərdə olan Gürcüstanın Baş naziri Z.Noqaidelini qəbul etmişdir.
**11 dekabr 2006-cı ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Azərbaycanda səfərdə olan Gürcüstanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri G.Bokerianı qəbul etmişdir.
**25 dekabr 2006-cı ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Azərbaycanda səfərdə olan Gürcüstanın Baş naziri Z.Noqaidelini qəbul etmişdir.
**7 fevral 2007-ci ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Gürcüstanda işgüzar səfərdə olmuşdur. Səfər zamanı Gürcüstan paytaxtının mərkəzində Heydər Əliyev adına prospektin təntənəli açılış mərasimi olmuşdur.
**8 fevral 2007-ci ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın ədliyyə naziri G.Kavtaradzeni qəbul etmişdir.
**20 fevral 2007-ci ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın Təbii Sərvətlər və ətraf mühitin mühafizəsi Naziri D.Tkeşelaşvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
**4 aprel 2007-ci ildə** Azərbaycan Prezidenti İ.Əliyev Azərbaycanda işgüzar səfərdə olan Gürcüstanın Baş naziri Z.Noqaidelini qəbul edib.
**12 may 2007-ci ildə** Azərbaycan Prezidenti İ.Əliyev Tbilisinin tarixi Abanostubani məhəlləsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev adına parkda ulu öndərin büstünün təntənəli açılış mərasimində iştirak etmişdir.
**18-19 iyun 2007-ci ildə** Bakıda keçirilmiş Demokratiya və İqtisadi İnkişaf Uğrunda Beynəlxalq təşkilatın (GUAM) dövlət başçılarının zirvə toplantısında Gürcüstan Prezidenti M.Saakaşvili iştirak etmişdir.
**13 iyul 2007-ci ildə** Gürcüstanın müdafiə naziri D.Kezeraşvilinin rəhbərlik etdiyi nümayəndə ölkəmizdə səfərdə olmuşdur.
**26-28 avqust 2007-ci ildə** Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarov Gürcüstanın Batumi şəhərində işgüzar səfərdə olmuşdur.
**27 sentyabr 2007-ci ildə** Bakıda keçirilən Azərbaycanla Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın dördüncü iclasında iştirak edən Gürcüstanın Baş naziri Z.Noqaidelini Azərbaycan Prezidenti İ.Əliyev
qəbul etmişdir.
**10 oktyabr 2007-ci ildə** Azərbaycan Prezidenti İ.Əliyev GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının bu təşkilatın 10 illiyinə həsr olunmuş Litvada keçirilən zirvə görüşündə Gürcüstan Prezidenti M.Saakaşvili ilə görüşmüşdür.
**31 oktyabr 2007-ci ildə** Gürcüstanın xarici işlər naziri G.Bejuaşvili Azərbaycanda səfərdə olmuşdur.
**21 noyabr 2007-ci ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Gürcüstanın Tetri-Skaro rayonunda - Marabda stansiyasında Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasimdə iştirak etmişdir.

**13 mart 2008-ci ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Azərbaycanda işgüzar səfərdə olan Gürcüstanın Baş naziri L.Qurqenidzeni qəbul etmişdir.

**16 mart 2008-ci ildə** Gürcüstanın Kulevi yaşayış məntəqəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (ARDNŞ) məxsus “Qara dəniz terminalı”nın təntənəli açılış mərasimində Baş nazir A.Rasizadənin rəhbərliyi ilə Azərbaycan Respublikasının və Prezident M.Saakaşvilinin başçılığı ilə Gürcüstanın nümayəndə heyətləri iştirak etmişlər.

**19 iyun 2008-ci ildə** Azərbaycan Parlamentinin 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edən Gürcüstan Parlamentinin Sədri D.Bakradzeni Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev qəbul etmişdir.

**1 iyul 2008-ci ildə** Gürcüstanın Batumi şəhərində keçirilmiş Demokratiya və İqtisadi İnkişaf Uğrunda Beynəlxalq təşkilatın (GUAM) dövlət başçılarının zirvə görüşündə Azərbaycan Prezidenti İ.Əliyevdə iştirak etmişdir.

**24 oktyabr 2008-ci ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin andiçmə mərasimində Gürcüstan Prezidenti M.Saakaşvilidə iştirak etmişdir.

**13-14 noyabr 2008-ci ildə** Bakıda keçirilən Enerji Sammitində Gürcüstan Prezidenti M.Saakaşvilidə iştirak etmişdir.

**21-22 dekabr 2008-ci ildə** Gürcüstanın Xarici İşlər Naziri Q.Vaşadze ölkəmizdə rəsmi səfərdə olmuşdur.

**1-3 aprel 2009-cu ildə** Xarici İşlər Naziri E.Məmmədyarov Gürcüstanda rəsmi səfərdə olmuşdur.

**12 may 2009-cu il** tarixində Gürcüstan Ali Məhkəməsinin sədri Konstantin Kublaşvili Azərbaycanda səfərdə olmuş və ölkə başçısı İlham Əliyev tərəfindən qəbul edilmişdir.

**20-22 may 2009-cu il** tarixində Gürcüstan Prezidenti M.Saakaşvili Azərbaycanda rəsmi səfərdə olmuş, dövlət başçısı İ.Əliyev və digər rəsmi şəxslər ilə görüşlər keçirmişdir.

**1-2 iyun 2009-cu il** tarixində Gürcüstanın Baş Naziri N.Gilauri Azərbaycanda rəsmi səfərdə olmuş, Prezident İ.Əliyev və Baş Nazir A.Rasi-zadə ilə görüşlər keçirmiş, habelə 16-cı Beynəlxalq Xəzər Neft və Qaz sərgi və konfransının açılışında iştirak etmişdir.

**14-15 sentyabr 2009-cu il** tarixlərində Gürcüstanın Xarici İşlər Naziri Qriqol Vaşadze Azərbaycanda səfərdə olmuş, Prezident İ.Əliyev və nazir E.Məmmədyarov ilə görüşlər keçirmişdir.

**29 yanvar 2010-cu ildə** Gürcüstanın paytaxtı Tbilisi şəhərində Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi ilə bağlı Koordinasiya şurasının 8-ci iclası keçirilmişdir.

**7 iyul 2010-cu il** tarixində Gürcüstanın Xarici İşlər Naziri Qriqol Vaşadze Azərbaycanda səfərdə olmuş, Prezident İ.Əliyev və nazir E.Məmmədyarov ilə görüşlər keçirmişdir.

**18 iyul 2010-cu ildə** Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Gürcüstanda işgüzar səfərdə olmuş, həmin ölkənin Batumi şəhərində Gürcüstanın Prezidenti M.Saakaşvili ilə birgə mətbuat konfransı keçirilmişdir.

**23 iyul 2010-cu ildə** Gürcüstanın Baş Naziri N.Gilauri Azərbaycanda rəsmi səfərdə olmuş, Prezident İ.Əliyev və Baş Nazir A.Rasi-zadə ilə görüşlər keçirmiş, Azərbaycan və Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası

Komissiyanın 6-cı iclasında iştirak etmişdir. Səfər zamanı Azərbaycan Respublikası ilə Gürcüstan arasında nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması haqqında Anlaşma Memorandumunu və iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyanın 6-cı iclasının yekun protokolunu imzalanmışdır.
**14 sentyabr 2010 ildə** Gürcüstan Prezidenti M.Saakşvili AGRİ layihəsinə dair Bəyannamənin imzalanması məqsədi ilə Bakıda işgüzar səfərdə olmuş, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevlə görüşmüşdür.
**21 sentyabr 2010-cu ildə** Nyu-Yorkda BMT Baş Assambleyasının 65-ci iclası çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarov ilə Gürcüstanın Xarici İşlər Naziri Q.Vaşadze arasında görüş keçirilmişdir.
**14-15 oktyabr 2010-cu il** tarixlərində Xarici İşlər Naziri E.Məmmədyarov Gürcüstanda rəsmi səfərdə olmuş, Prezident M.Saakaşvili, Baş Nazir N.Gilauri, Xarici İşlər Naziri Q.Vaşadze ilə görüşlər keçirmişdir. Səfər zamanı Nazir E.Məmmədyarov Kvemo Kartli bölgəsinin Marneuli şəhərində yerli azərbaycanlıların fəal nümayəndələri və bölgənin qubernatoru D.Kirkitadze ilə görüşmüşdür.
**18-19 yanvar 2011-ci ildə** Gürcüstanın Xarici işlər naziri Q.Vaşadzenin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində Q.Vaşadze Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev, AR Xarici işlər naziri E.Məmmədyarov və AR Nəqliyyat naziri Z.Məmmədovla görüşmüşdür.

***Əməkdaşlıq qrupları –*** İki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin sabit və uzunmüddətli inkişafının təmin edilməsi məqsədilə Azərbaycan-Gürcüstan Hökumətlərarası Birgə İqtisadi Komissiyası fəaliyyət göstərir. Azərbaycan tərəfindən Komissiyanın həmsədri Baş Nazir A.Rasi-zadədir. İndiyədək bu komissiyanın 6 iclası keçirilmişdir (Azərbaycanda: 18 iyul 2005, 27 sentyabr 2007, 23 iyul 2010, Gürcüstanda: 11 iyun 2004, 16 avqust 2006, 4 dekabr 2008). Bundan başqa hər iki ölkənin Parlamentində Dostluq qrupları yaradılmışdır.
***Gürcüstan azərbaycanlıları –*** Gürcüstanda öz tarixi yurdlarında kompakt şəkildə yüz minlərlə azərbaycanlı yaşayır. Rəsmi statistikaya görə azərbaycanlılar Gürcüstanın ən böyük etnik qrupudur. Bu ölkədə milli-mənəvi ruhumuzu, mədəniyyətimizi yaşadan Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Dram Teatrı, M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyi, Azərbaycan Mədəniyyət Mərkəzləri, Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsi, azərbaycandilli ümumtəhsil məktəbləri fəaliyyət göstərir, Azərbaycan dilində «Gürcüstan», «Varlıq», «RegionPress», «Ziya», «Ozan», «Qeyrət» qəzetləri, «Qarapapaqlar» və «Meydan» dərgiləri fəaliyyət göstərir. Gürcüstanda qeydiyyata alınmış Azərbaycan ictimai birlikləri, qeyri-hökumət təşkilatlarının bir qisminin siyahısı:

**Azərbaycanlıların Mədəniyyət Mərkəzi (Marneuli ş.)** – Fazil Həsənov
**«Varlıq» Mədəniyyət Mərkəzi (Tbilisi ş.)** – Rafiq Hümmət
**Rustavi Azərbaycanlılarının Mədəniyyət Mərkəzi** – Xaləddin Yolçuyev
**Gürcüstan Azərbaycanlıları Konqresi** – Hüseyn Yusifov
**”Qeyrət” Xalq Hərəkatı** – Əlibaba Əsgərov və Zümrüd Qurbanov
**Gürcüstan Azərbaycanlıların Ziyalılar Birliyi** – Novruz Bayramov **Gürcüstanda Azərbaycan Mədəniyyətinin İnkişafı Mərkəzi** – Namiq Valehoğlu-Hacıyev

**Gürcüstan Aşıqlar, İncəsənət və Mədəniyyət Birliyi** – Osman Əhmədoğlu
**Acarıstan Gürcü-Azərbaycan Xeyriyyə Cəmiyyəti** – Vidadi Axundov
**”Birlik” Ümümgürcüstan Azərbaycan Cəmiyyəti –** Süleyman Əfəndi-Süleymanov
**Valeh Hacılar Beynəlxalq Elmi-Mədəni Araşdırmalar Fondu** – Cengiz Alyılmaz
**Gürcüstan azərbaycanlılarının ”Ozan” təşkilatı –** Kamil Kirəcli-Musayev
**“Gürcüstan mənim vətənimdir” cəmiyyəti –** Əli Babayev
**Gürcüstan Azəri Qadınlar Birliyi –** Leyla Süleymanova
**GeoTuran Gürcüstan-Azərbaycan İqtisadi-Mədəni Əlaqələr Birliyi –** Arif İbrahimov
**Gürcüstanda Azərbaycanlı iş adamlarının ictimai təşkilatı “AZEBİ” –** Qaratel Allahverdiyeva

## 5. Müqavilə-hüquq bazası

İki ölkə arasında 99 dövlətlərarası, hökumətlərarası və idarələrarası sənəd imzalanmışdır:

**Azərbaycan Respublikası ilə Ukrayna arasında imzalanmış sənədlərin siyahısı:**

**1992-ci il**

1. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında diplomatik münasibətlərin yaradılması haqqında Protokol. Bakı, 18 noyabr 1992

2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Gürcüstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol. Bakı, 18 noyabr 1992

**1993-cü il**

3. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında Beynəlxalq avtomobil əlaqələri haqqında Saziş. Bakı, 3 fevral 1993

4. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının zəmanətləri haqqında Saziş. Bakı, 3 fevral 1993

5. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası arasında rabitə sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 3 fevral 1993

6. Azərbaycan Respublikasının Milli Məclisi ilə Gürcüstan Parlamenti arasında əməkdaşlıq haqqında Saziş. Bakı, 3 fevral 1993

7. Azərbaycan Respublikası Gömrük Komitəsi və Gürcüstan Respublikası Gömrük Komitəsi arasında narkotiklərin və psixotrop maddələrin qanunsuz dövriyyəsi haqqında Saziş. Bakı, 3 fevral 1993

8. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə. Bakı, 3 fevral 1993

9. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında kənd təsərrüfatı və yeyinti sənayesinin inkişaf etdirilməsi sahəsində Anlaşma Memorandumu. Bakı, 3 fevral 1993

10. İran təbii qazının Azərbaycan ərazisindən Gürcüstan Respublikasına tranzit nəqli haqqında Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında Hökumətlərarası Saziş. Bakı, 3 fevral 1993

11. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında vizasız gediş-gəliş haqqında Saziş. Bakı, 3 fevral 1993

12. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında vizaların qarşılıqlı surətdə tanınması haqqında Saziş. Bakı, 3 fevral 1993

13. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Memorandum. Bakı, 3 fevral 1993

14. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında iqtisadi münasibətlərin əsasları haqqında Bəyannamə. Bakı, 3 fevral 1993

15. Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında mədəni, elmi və humanitar əlaqələr haqqında Saziş. Bakı, 3 fevral 1993

16. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında hava əlaqələri haqqında Saziş. Bakı, 3 fevral 1993

17. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 3 fevral 1993

18. 1993-cü ildə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq prinsipləri haqqında Saziş. Bakı, 3 fevral 1993

19. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında yol nəqliyyatının fəaliyyətini əlaqələndirmək haqqında Saziş. 3 fevral 1993

20. Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında gömrük işi sahəsində münasibətlərin əsasları haqqında Saziş. Bakı, 3 fevral 1993

**1995-ci il**

21. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizədə əməkdaşlıq haqqında Saziş. Bakı, 7 may 1995

**1996-cı il**

22. Azərbaycan Respublikası ilə Gürcüstan arasında karbohidrogenləri nəqletmənin bəzi mövcud obyektlərinin (vasitələrinin təkmilləşdirilməsi və modernləşdirilməsi, yeni nəqletmə obyektlərinin (vasitələrinin işlənib hazırlanması və bu cür obyektlərin) vasitələrin köməyi ilə karbohidrogenlərin Gürcüstan ərazisindən kənara nəql olunması haqqında Saziş. Tbilisi, 8 mart 1996

23. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Gürcüstan Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Protokol. Tbilisi, 8 mart 1996

24. Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə. Tbilisi, 8 mart 1996

25. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında ticarət gəmiçiliyi əməkdaşlığı haqqında Saziş. Tbilisi, 8 mart 1996

26. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Gürcüstanın Ədliyyə Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 8 mart 1996

27. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 8 mart 1996

28. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında Saziş. Tbilisi, 8 mart 1996

29. Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında Bəyannamə. Tbilisi, 8 mart 1996

30. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında sərbəst ticarət haqqında Saziş. Tbilisi, 8 mart 1996

31. Azərbaycan Respublikası ilə Gürcüstan arasında mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Müqavilə. Tbilisi, 8 mart 1996

32. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında istehsalat kooperasiyası haqqında Saziş. Tbilisi, 8 mart 1996

33. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş. Tbilisi, 8 mart 1996

34. Azərbaycan Respublikası ilə Gürcüstan arasında Konsulluq Konvensiyası. Tbilisi, 24 dekabr 1996

**1997-ci il**

35. Azərbaycan Respublikası və Gürcüstan arasında sərhəd məsələləri üzrə əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

36. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında sərnişin avtomobil nəqliyyatının inkişafı haqqında Saziş. Bakı, 18 mart 1997

37. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında ekoloji cəhətdən təmiz avtomatlaşdırılmış xüsusi nəqliyyat və onun infrastrukturu sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 18 fevral 1997

38. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində qarşılıqlı əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

39. Azərbaycan Respublikasının Hökuməti və Gürcüstan Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

40. Azərbaycan Respublikası Rabitə Nazirliyi ilə Gürcüstan Poçt və Rabitə Nazirliyi arasında Niyyət Memorandumu. Bakı, 18 fevral 1997

41. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınma hallarının qarşısının alınması haqqında Konvensiya. Bakı, 18 fevral 1997

42. Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Bəyannamə. Bakı, 18 fevral 1997

43. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

44. Azərbaycan Respublikası ilə Gürcüstan arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında Müqavilə. Bakı, 18 fevral 1997

45. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

46. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

47. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin və Gürcüstan Daxili İşlər Nazirliyinin nümayəndələrinin mübadiləsi haqqında Saziş. Bakı, 18 fevral 1997

48. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

49. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

50. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında vergi qanunvericiliyinə əməl olunması üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş. Bakı, 18 fevral 1997

51. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gürcüstan Hökumətinin Azərbaycan Respublikası Hökumətinə olan borcunun restrukturizasiyası haqqında Saziş. Bakı, 18 fevral 1997

52. Bakı Şəhər İcra Hakimiyyəti və Tbilisi şəhərinin Meriyası arasında əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

53. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 18 fevral 1997

54. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında elektroenergetika sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 27 dekabr 1997

55. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 27 dekabr 1997

56. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında malların (işlərin, xidmətlərin) idxalı və ixracı zamanı vasitəli vergilərin tutulması prinsipləri haqqında Saziş. Tbilisi, 27 dekabr 1997

57. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 27 dekabr, 1997

58. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında valyuta və ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş. Tbilisi, 27 dekabr 1997

**1998-ci il**

59. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan İcra Hakimiyyəti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 9 noyabr 1998

60. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan İcra Hakimiyyəti arasında iqtisadi və maliyyə pozuntuları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 9 noyabr 1998

**1999-cu il**

61. Birgə Bəyanat. Tbilisi, 23 avqust 1999

**2000-ci il**

62. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında hüquqi informasiya mübadiləsi haqqında Saziş. Tbilisi, 22 mart 2000

63. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Gürcüstanın Səhiyyə və Sosial Müdafiə Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 22 mart 2000

64. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında rabitə sahəsində əməkdaşlıq haqqında Saziş. Tbilisi, 22 mart 2000

65. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Gürcüstan Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş. Tbilisi, 22 mart 2000

66. Birgə Bəyanat. Tbilisi, 22 mart 2000

67. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında səfirliklərin fəaliyyəti ilə əlaqədar məsələlərin qarşılıqlı tənzimlənməsi haqqında Saziş. Tbilisi, 22 mart 2000

**2001-ci il**

68. Birgə Bəyanat. Bakı, 13 fevral 2001

69. Birgə Bəyanat. Bakı, 29 sentyabr 2001

70. Azərbaycan Respublikası və Gürcüstan arasında təbii qazın Azərbaycan Respublikası və Gürcüstan ərazilərində və bu ərazilərin hüdudlarından kənarda

Cənubi Qafqaz Boru Kəməri sistemi vasitəsilə tranziti, nəql edilməsi və satışına dair Saziş. Bakı, 29 sentyabr 2001

**2002-ci il**

71. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstanın Dövlət sərhədinin mühafizəsi Dövlət Departamenti arasında əməliyyat-axtarış fəaliyyətində əməkdaşlıq haqqında Protokol. Bakı, 26 mart 2002

72. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstanın Dövlət sərhədinin mühafizəsi Dövlət Departamenti arasında Azərbaycan – Gürcüstan dövlət sərhədində sərhəd nəzarəti sahəsində əməkdaşlıq haqqında Protokol. Bakı, 26 mart 2002

73. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstanın Dövlət sərhədinin mühafizəsi Dövlət Departamenti arasında Azərbaycan – Gürcüstan dövlət sərhədində vəziyyət barədə məlumat mübadiləsi qaydası haqqında Protokol. Bakı, 26 mart 2002

74. Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Gürcüstan Respublikası Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş. Tbilisi, 16 dekabr 2002

75. Gürcüstanın müdafiə naziri general-leytenant D.Tevzadzenin Azərbaycan Respublikasına rəsmi səfərinin nəticələri üzrə Protokol. Bakı, 9 aprel 2002

**2003-cü il**

76. 18 fevral 1997-ci il tarixli "Gürcüstan Hökumətinin Azərbaycan Respublikası Hökumətinə olan borcunun restrukturizasiyası haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş" üzrə Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borcunun tənzimlənməsi haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş. Bakı, 7 oktyabr 2003

77. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Gürcüstanın Milli Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Sazişə 1 saylı Protokol. Gəncə, 10 iyul 2003

**2004-cü il**

78. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 4 mart 2004

79. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş.Bakı, 4 mart 2004

80. Azərbaycan Respublikası və Gürcüstanın Birgə Bəyannaməsi. Bakı, 4 mart 2004

81. Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin və Gürcüstanın Prezidenti M.Saakaşvilinin Birgə Kommünikesi. Tbilisi, 14 iyun 2004

82. Azərbaycan Respublikası Dövlət Teleradio Verilişləri Şirkəti ilə Gürcüstan Teleradio Verilişləri arasında əməkdaşlıq haqqında Saziş. Tbilisi, 14 iyun 2004

83. Azərbaycan Respublikasının Hökuməti və Gürcüstanın Hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında Saziş. Tbilisi, 14 iyun 2004

84. Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında dəmir yolu nəqliyyatının fəaliyyətinin koordinasiyası haqqında Saziş. Tbilisi, 14 iyun 2004

85. Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş. Tbilisi, 14 iyun 2004

86. Azərbaycan Respublikasının və Gürcüstanın aviasiya hakimiyyətləri arasında mülki aviasiya sahəsində əməkdaşlığın gələcək inkişafı haqqında Protokol. Tbilisi, 14 iyun 2004

87. Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın birinci iclasının Protokolu. Tbilisi, 11 iyun 2004

**2006-cı il**

88. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borc öhdəliyinin restrukturizasiyası haqqında Saziş. Batumi, 17 avqust 2006

**2007-ci il**

89. "Bakı–Tbilisi–Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda – Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş. Tbilisi, 7 fevral 2007

90. Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş. Bakı, 20 avqust 2007

**2008-ci il**

91. Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın beşinci iclasının Protokolu. Tbilisi, 4 dekabr 2008

**2009-cu il**

92. 2009-cu il üçün Azərbaycan Respublikası və Gürcüstan Xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr Planı, Tbilisi, 1 aprel 2009

93. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında azad ticarət haqqında 1996-cı il tarixli Sazişə dəyişiklik edilməsi haqqında Protokol, Bakı, 20 may 2009.
94. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Saziş. Bakı, 20 may 2009.

96. Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə dəyişiklik edilməsi haqqında Protokol, Bakı, 20 may 2009.

97. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Gürcüstanın Milli Arxivi arasında Memorandum. Bakı, 8 iyul 2009.

**2010-cu il**

98. Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması üzrə Azərbaycan Respublikası ilə Gürcüstan arasında ikitərəfli protokol. Tbilisi, 29 aprel 2010-cu il.

99. Azərbaycan Respublikası ilə Gürcüstan arasında nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması haqqında Anlaşma Memorandumu. Bakı, 23 iyul 2010-cu il.

## 6.Tərcümeyi-Hallar

**Prezident Mixail Nikolozoviç Saakaşvili**

**21 dekabr 1967-ci ildə** anadan olmuşdur.
**1992** – Kiyev Beynəlxalq Əlaqələr Universitetinin bitirmişdir.
**1993** – ABŞ Konqresinin təqaüdçüsü qismində Kolumbiya Universitetinin (Nyu-York) magistraturasını Hüquq ixtisası üzrə bitirmişdir.
**1995** – C.Vaşinqton Universitetində doktorluq işini müdafiə etmişdir.
**1995-2000 –** Gürcüstan Parlamentinin üzvü, Parlamentin hüquq komissiyası Sədri
**2000-2001** – Ədliyyə Naziri, öz xahişi ilə istefa vermişdir.
**2002-2003** – Tbilisi Bələdiyyəsinin sədri
**4 yanvar 2004-cü il** – Gürcüstanın Prezidenti seçilmişdir.

**5 yanvar 2008-ci il** – Növbədənkənar keçirilmiş Prezident seçkilərində yenidən qalib gəlmişdir. Evlidir, iki övladı var.
İngilis, fransız, rus dillərini bilir.

**Parlamentin sədri David Bakradze**

**1 iyul 1972-ci ildə** Gürcüstanın Tbilisi şəhərində anadan olmuşdur.
**1994** – Gürcüstan Texniki Universitetini fərqlənmə ilə bitirmişdir. Həmin il Texniki Universitetin "Radiofizikanın nəzəri əsasları" ixitisası üzrə aspiranturasına daxil olmuşdur.
**1995-1996** – Gürcüstan-ABŞ Dövlət idarəçiliyi İnstitunda təhsil almışdır.
**1997-2000** – Gürcüstanın Xarici İşlər Nazirliyində tərk-silah etmə və silahlandırmaya nəzarət idarəsinin rəis müavini, rəisi.
**2000-2002** – Gürcüstan Xarici İşlər Nazirliyinin hərbi-siyasi departamentinin rəisinin müavini.
**2002-2003** – Gürcüstanın Milli Təhlükəsizlik Şurasının apparatın rəhbərinin təhlükəsizlik məsələləri üzrə xidmətinin rəisi.
**2003-2004** – Gürcüstanın Milli Təhlükəsizlik Şurasının apparıtında xarici-siyasi təhlükəsizlik və konfliktlər departamentinin rəisi.
**2004** – Milli Təhlükəsizlik Şurasının apparatının siyasi təhlükəsizlik departamentinin rəisi
**iyun 2004** – Gürcüstan Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi və Gürcüstanın Milli Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin edilmişdir.
**2004-2007** – Gürcüstan Parlamentinin üzvü, Parlamentdə Avropaya inteqrasiya komitəsinin sədri
**iyul 2007** – Gürcüstanın konfliktli məsələlərin həlli üzrə Dövlət Naziri vəzifəsinə təyin edilmişdir.
**may 2008** – Gürcüstan Parlamentinin Sədri.
Rus və ingilis dillərini bilir. Evlidir, iki övladı var.

**Baş nazir Nikoloz Qilauri**

**14 fevral 1975-ci ildə** Tbilisi şəhərində anadan olmuşdur. Tbilisi Dövlət Universitetinin Beynəlxalq İqtisadi Münasibətlər fakültəsini bitirmişdir.
**1998-1999** – İrlandiyanın Limerik Universitetində təhsil almışdır.
**1999-2000** – ABŞ-da, Templ Universitetində təhsil almışdır.
**2000-2004** – Özəl sektorda çalışmışdır.
**2004-2007** – Energetika Naziri vəzifəsində çalışmışdır.
**2007** – Maliyyə Naziri təyin edilmişdir.
**2008** – Baş Nazirin müavini təyin edilmişdir.
**30 yanvar 2009** – Gürcüstanın Baş Naziri təyin olunmuşdur.
Rus və ingilis dillərini bilir. Evlidir.

**Xarici işlər naziri Qriqol Vaşadze**

**1958-ci ilin 19 iyulunda** Tbilisidə anadan olmuşdur.
**1981** – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitunun Beynəxalq Hüquq fakültəsini bitirmişdir.
**1981-1988** – SSRİ Xarici İşlər Nazirliyində, Beynəlxalq Təşkilatlar, Kosmos və Nüvə silahı idarələrində işləmişdir.
**1988-1990** – Diplomatik Akademiyanın aspirantı olmuşdur.
**1990-2008** – Bizneslə məşğul olmuş, şəxsi firmalarına rəhbərlik etmişdir.
**6 fevral 2008** – Gürcüstan Xarici İşlər Nazirinin müavini təyin olunub.
**1 noyabr 2008** – Gürcüstanın Mədəniyyət və İdman Naziri
**Dekabr, 2008** – Xarici İşlər Naziri
Rus, ingilis, portuqal, italyan, ispan və fransız dillərini bilir. Evlidir, iki övladı var.